# Qərəz və riyakarlıq yuvası

Fransanın yürütdüyü aqressiv siyasət və destruktiv fəaliyyət bu ölkənin onsuz da sarsılmış imicini daha da korlayır və Ermənistanın çıxılmaz vəziyyətini daha da dərinləşdirir. Bir sözlə, Fransanın sülhü təhdid edən və bölgəni təhlükələrə sürükləməyə hədəflənən siyasəti iflasa məhkumdur. Buna görə də yaxşı olar ki, Yelisey sarayı Azərbaycana qarşı qərəzli siyasətindən birdəfəlik əl götürsün. Əks təqdirdə nüfuzu yerlə bir olan yenə Fransa, aqibəti daha da pis günə qalan müdafiə etdiyi təcavüzkar Ermənistan olacaq.

→ 4

Azərbaycan.- 2024.- 4 aprel, № 69.- S.1, 4.

# Qərəz və riyakarlıq yuvası

## Fransa Ermənistanı "sülhpərvər" ölkə kimi təqdim etməklə beynəlxalq hüququ və insan haqlarını təhqir edir

Siyasəti müstəmləkəçilik üzərində qurulan Fransa növbəti dəfə Azərbaycana qarşı qərəz və riyakarlıq nümayiş etdirib. Belə ki, aprelin 2-də Fransanın Avropa və xarici işlər naziri Stefan Sejurne Parisdə ABŞ dövlət katibi ilə birgə mətbuat konfransı zamanı Azərbaycana qarşı yalan, böhtan və iftiralardan ibarət əsassız iddialar səsləndirib.



Bununla da Fransa Cənubi Qafqazda gərginlik yaratmaq, münaqişə ocağı alovlandırmaq niyyətində olduğunu açıq şəkildə bir daha ortaya qoyub. Azərbaycanın səyləri nəticəsində regionda sülhlə bağlı yaranan tarixi fürsətə mane olmaq üçün bütün məkrli planlarını işə salıb.

### Təcavüzkar və saxta siyasət

Vətən müharibəsi və antiterror tədbirlərindən sonra Fransanın ölkəmizə qarşı təşkil etdiyi "səlib yürüşü", apardığı qarayaxma kampaniyası intensiv xarakter alıb. Makron hökumətinin təşkilatçılığı ilə Fransa Senatı, Avropa Parlamenti tərəfindən ölkəmizə qarşı qəbul edilən qərəzli, birtərəfli, əsassız qətnamələr, eləcə də Avropa Şurası Parlament Assambleyasında ölkəmizin nümayəndə heyətinin səs hüququnun dondurulması haqqında qərar da buna bariz nümunələrdir.

Həmçinin Fransa təcavüzkar Ermənistana və separatçılara bütün mümkün vasitələrlə dəstək göstərir. İrəvanı geniş şəkildə silahlandıraraq revanşa qızışdırır.

Digər tərəfdən isə Paris beynəlxalq ictimaiyyəti aldatmağa yönəlik addımlar atır, Azərbaycanı aqqressiv ritorikada təqsirləndirməyə çalışır. Makron hökumətinin bütün çirkin fəaliyyətini ölkəmizin COP29-a - BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası kimi mühüm beynəlxalq tədbirə evsahibliyi etdiyi bir dönəmdə qəsdən daha da intensivləşdirməsi də gözlərdən yayınmır.

Aprelin 2-də Fransanın Avropa və xarici işlər naziri Stefan Sejurnenin Parisdə ABŞ dövlət katibi ilə birgə mətbuat konfransı zamanı Azərbaycana qarşı səsləndirdiyi absurd və heç bir əsasa dayanmayan iddiaları da elə bu qəbildəndir və məkrli məqsədlər güdür.

Məsələ ilə əlaqədar Azərbaycan Xarici İşlər Nazirliyinin şərhində də qeyd olunur ki, Ermənistanın geniş şəkildə silahlanmasını həyata keçirən, bölgədə militarizmi təşviq edən Fransa tərəfinin Azərbaycanı aqressiv ritorikada təqsirləndirməsi qəbuledilməzdir: "Azərbaycanın COP29 evsahibliyi kimi məsul vəzifəni yerinə yetirdiyi bir dönəmdə, ölkənin imicinə xələl gətirmək məqsədi güdən və sədrliyimizi hədəf alan bu kimi çağırışlardan çəkinilməsinin Fransa və dünyamız üçün daha faydalı olacağını hesab edirik", - deyə XİN-nin şərhində vurğulanır.

Həmçinin şərhdə Ermənistanın Fransa tərəfindən sülhpərvər ölkə kimi təqdim edilməsinin bu ölkənin həm vasitəçiliyi dövründə, həm də 44 günlük Vətən müharibəsindən sonra yürütdüyü siyasətin nə qədər saxta olduğunu nümayiş etdirdiyi bildirilir.

Faktdır ki, Azərbaycan ilə Ermənistan arasında münaqişənin danışıqlar yolu ilə nizamlanmasında vasitəçi olaraq 25 illik fəaliyyəti dövründə Fransa heç bir əməli fəaliyyət göstərməyib. Ermənistan tərəfindən Azərbaycanın torpaqlarının işğal edilməsinə, yüz minlərlə azərbaycanlının məcburi köçkünə çevrilməsinə, ərazilərimizin talanmasına, minalanmasına və sair kimi beynəlxalq hüquqa zidd əməllərə göz yumub, bu barədə bir dəfə də olsun səsini çıxarmayıb. Əksinə, onilliklər ərzində çalışıb ki, məsələ Ermənistanın xeyrinə əbədi olaraq dondurulsun. Çünki əks-təqdirdə yalan vədlər verərək aldatdığı erməni lobbisinin pulları, işğal altındakı Qarabağda qanunsuz şəkildə taladığı yerüstü, yeraltı sərvətlərimiz əlindən çıxacaqdı...

Buna görədir ki, Azərbaycanın torpaqlarını azad etməsini və suverenliyini təmin etməsini Paris heç cür həzm edə bilmir. Müxtəlif çirkin yollarla bölgədə qarşıdurma yaratmağa çalışır. Sülh prosesi ilə bağlı irəliləyiş əldə olunmasına mane olur.

Bu il fevralın 17-də Münxendə Bakı və İrəvanın liderlər səviyyəsində keçirdiyi görüş siyasətçilər, politoloqlar tərəfindən Ermənistan-Azərbaycan arasında normallaşmaya nail olunması üçün mühüm addım kimi qiymətləndirildi. Ancaq Almaniyanın təşəbbüsü ilə baş tutan bu ikitərəfli görüşdən dərhal sonra Nikol Paşinyan Emmanuel Makronun təhriki ilə Parisə yola düşərək orada Azərbaycana qarşı böhtanlar səsləndirdi və bütün bunlar sülhə birbaşa zərbə vurdu.

Əslində, Fransanın iki ölkə arasında normallaşmaya qarşı bu kimi davranışları ilə bağlı xeyli sitatlar göstərmək olar. Xatırladaq ki, 2023-cü ildə məhz Makronun təxribatı nəticəsində Azərbaycan İspaniyanın Qranada şəhərində planlaşdırılan beştərəfli görüşdən imtina etmişdi.

### Qanlı müharibə ssenariləri

Dünyada nüfuzu yerlə bir olan, müstəmləkələrini birbir itirən Fransa son çarə kimi təcavüzkar Ermənistan üzərindən Cənubi Qafqaza yerləşərək buranı özünün növbəti koloniyasına çevirmək istəyir. Paris "Sülhməramlı missiya" adı altında regionda qanlı müharibə ssenariləri planlaşdırır.

Ancaq bütün beynəlxalq platformalarda XXI əsrdə də neokoloniolist siyasət həyata keçirən Fransanı ifşa edən Azərbaycan, erməni lobbisinin əsirinə çevrilən Parisin bu çirkin məqsədinə çatmasına heç zaman imkan verməyəcək.

Əslində, Makron hökumətinin Cənubi Qafqazla bağlı yürütdüyü riyakar siyasətin Bakı tərəfindən iflasa uğradıldığı Yelisey sarayının tezisləri ilə işləyən "Le Fiqaro" qəzeti vasitəsilə də etiraf olunub. Fransa Azərbaycanı ittiham etməkdənsə, Afrika və Yaxın Şərqdə həyata keçirdiyi aqressiv kolonializasiya siyasətinin gətirdiyi fəlakətlərdən nəticə çıxarmalı, öz müstəqilliyinə qovuşmaq istəyən koloniyalarda fəallara qarşı təzyiq, təqib və cəzalandırma metodlarından, həmin xalqların müstəqillik uğrunda mübarizələrinə qarşı aqressiv tədbirlərdən əl çəkmək haqqında düşünməlidir.

Fransa başa düşməlidir ki, ona Cənubi Qafqazda neokolonializm siyasəti həyata keçirməsinə imkan verilməyəcək və bu siyasətin, eləcə də regionda vəziyyətin gərginləşməsinə yönəlmiş əməllərinin fəsadlarını həm özü, həm də cidd-cəhdlə müdafiə etməyə çalışdığı Ermənistan yaşamağa məcbur olacaq.

Fransanın yürütdüyü aqressiv siyasət və destruktiv fəaliyyət bu ölkənin onsuz da sarsılmış imicini daha da korlayır və Ermənistanın çıxılmaz vəziyyətini daha da dərinləşdirir.

Bir sözlə, Fransanın sülhü təhdid edən və bölgəni təhlükələrə sürükləməyə hədəflənən siyasəti iflasa məhkumdur. Buna görə də, yaxşı olar ki, Yelisey sarayı Azərbaycana qarşı qərəzli siyasətindən birdəfəlik əl götürsün. Əks təqdirdə, nüfuzu yerlə bir olan yenə Fransa, aqibəti daha da pis günə qalan müdafiə etdiyi təcavüzkar Ermənistan olacaq.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*